**Ədilə Namazova – 90**

# Milli pediatriyamızın fəxri

**❒ Azərbaycanın elmi- tibbi və mədəni ictimaiyyəti ölkə səhiyyəsinin və təhsilinin görkəmli nümayəndəsi, AMEA- nın həqiqi üzvü, vətənpərvər ziyalı Ədilə Əvəz qızı Namazovanın anadan olmasının 90 illiyini təntənə və qədirbilənliklə qeyd edir. Bu günlərdə yubilyarın "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi bu nüfuzlu alimin, təbibin və pedaqoqun 60 ildən artıq bir dövr ərzindəki çoxşaxəli və məhsuldar fəaliyyətinə, səmərəli xidmətlərinə verilən növbəti ali qiymət olmuşdur.**



Ədilə Namazova 1926-cı ilin sentyabr ayında gözəl Qarabağın dilbər guşəsi olan Ağdam rayonunun Seyidli kəndində həyata göz açmışdır. Gələcəyin tanınmış ziyalısı hələ uşaq yaşlarından ağıllı, zirək və fərasətli olması ilə yaşıdlarından fərqlənmişdir. Onun Ağdam rayon 1 saylı məktəbində oxuduğu ötən əsrin 40-cı illəri İkinci dünya müharibəsi, xalqın ağır güzəranı, aclıq, məhdudiyyətlər, bir sıra xəstəliklər tüğyan etdiyi bir dövrə düşmüşdür. Yeniyetmə Ədilə dərsdənkənar vaxtlarda və tətillərdə kolxozda kənd əməkçilərinə məhsul yığımında kömək üzrə şagirdlərarası yarışda birinci yerə çıxmış və 1944-cü ildə yüksək göstəricilərinə görə SSRİ gənclər təşkilatı mərkəzi komitəsinin fəxri fərmanı ilə təltif olunmuşdur.

Gələcəyin həkimi və orta təhsili əla qiymətlərlə 1944-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutunun pediatriya fakültəsinə daxil olmuşdur. 1949-cu ildə Tibb İnstitutunu müvəffəqiyyətlə bitirən Ədilə Namazova doğma Ağdama qayıdıb rayon uşaq məsləhətxanasının müdiri işləmişdir. Uşaq səhiyyəsi sahəsində fədakarlıqla, ləyaqətlə çalışaraq yaxşı nəticələrə, uşaq ölümünün azalmasına nail olduğuna görə gənc həkim dəfələrlə rayon səhiyyə şöbəsinin, Səhiyyə Nazirliyinin tərifnamə və təşəkkürlərinə layiq görülmüşdür.

Diqqətli həkim, qayğıkeş, xoş xasiyyətli insan olduğuna görə az müddət ərzində Ədilə Namazova tək Ağdam rayonunda deyil, bütün Qarabağ bölgəsində – Şuşa, Laçın, Tərtər, Ağcabədi, Füzuli rayonlarında da böyük şöhrət qazanmışdır. Lakin o, bununla kifayətlənməmiş, bilik və bacarığını daha da artırmaq, səhiyyənin inkişafına öz töhfəsini vermək üçün təhsilini davam etdirmək, elmi axtarışlara qoşulmaq arzusu ilə yaşamışdır.

Uşaqlarda ürək, qan-damar sistemi xəstəliklərinin öyrənilməsi, profilaktikası və səmərəli müalicə üsullarının tapılması ilə dərindən maraqlanan Ədilə xanım gərgin müsabiqədə yüksək bal toplayaraq aspiranturaya qəbul olunmuşdur. O, 1954-1957-ci illərdə Moskva şəhərində sovet pediatriya elminin dünya şöhrətli patriarxı, SSRİ Tibb Elmləri Akademiyasının akademiki, Sosialist Əməyi Qəhrəmanı G.N.Speranskinin rəhbərliyi ilə elmi iş üzərində çalışmaqla yanaşı, onun başçılıq etdiyi uşaq xəstəlikləri kafedrasında işləmişdir.

Azərbaycanlı aspirant qız öz tədqiqatında yeni kompleks elektrofizioloji üsullardan (oksigemometriya, pnevmotaxometriya, venoqrafiya, pletizmoqrafiya və s.) istifadə edərək ilk dəfə uşaqlarda revmatizmin fəal mərhələsində ürək və qan-damar sisteminin funksional vəziyyətini, ürək əzələsində baş vermiş, o dövrə qədər öyrənilməmiş patoloji dəyişikliklərin mərhələsini, dərəcəsini aydınlaşdırmış, şərhini vermiş, rasional müalicə üsullarını təklif etmişdir. Həmyerlimiz Moskvanın dünya şöhrətli elm mərkəzində xəstə uşaqların gələcəkdə sağlam, cəmiyyətə yararlı olması üçün fərdi həyat şəraitini qurması, davranışı, ixtisas, sənət seçməsi haqqında tədbirlər kompleksi tərtib etmiş, səmərəli təkliflər vermişdir.

Bu tədqiqatların yekunlarını ümumiləşdirən Ədilə Namazova SSRİ Səhiyyə Nazirliyinin Moskva Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunun Elmi Şurasında tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün elmi işini uğurla müdafiə etmişdir. Dünyanın görkəmli alimləri həmin dissertasiya işini yüksək qiymətləndirmişlər.

1957-ci ildə Ə.Namazova Bakıya qayıdaraq Tibb İnstitutunun Pediatriya kafedrasında assistent işləməyə başlamış, tezliklə bu nüfuzlu ali məktəbin professor-müəllim heyətinin və tələbələrinin rəğbətini qazanmışdır. Pediatr-alim saysız-hesabsız xəstə uşaqları sağaltmış, vaxtaşırı teleradio efirində, qəzet-jurnal səhifələrində valideynlərə gərəkli məsləhətlər vermiş, ölkə əhalisinin diqqətini cəlb etmişdir.

Əldə etdiyi nailiyyətləri artırmağa, elmin yüksək zirvələrinə can atan alim yeni axtarışlar aparmaq üçün təzədən Moskvaya getmiş, SSRİ Tibb Elmləri Akademiyasında məşhur cərrah, akademik B.V.Petrovskinin klinikasında doktorluq dissertasiyası üzərində çalışmağa başlamışdır. Ədilə Namazova XX əsrin altmışıncı illərinə qədər hələ də öyrənilməmiş və tam ümidsiz hesab olunan anadangəlmə ürək qüsurlarının araşdırılmasında ümidverici tədqiqatlar aparmışdır. Azərbaycanın pediatrı alimi bu axtarışları ilə dünyada, ilk olaraq, uşaqlarda vektorkardioqrafiya, rentgen-elektrokimoqrafiya tətbiq edərək, ürəkdaxili və böyük damarların zondlaşmasından, angiokardioqrafiyadan istifadə edərək ürəyin ayrı-ayrı boşluqlarında qan təzyiqinin səviyyəsini, oksigen, karbon qazının tutumunu öyrənməklə ağ ciyər damarlarının müqavimətini müəyyənləşdirmişdir. Elmdə bu yeniliklərə görə Ədilə Namazovaya SSRİ Dövlət İxtira Komitəsindən 5 vəsiqə verilmişdir.

Elmi araşdırma əsasında anadangəlmə ürək qüsurlarının düzgün topik diaqnozunu dəqiqləşdirərək Ədilə xanım kiçik qan dövranında durğunluğun dərəcəsini, qan təzyiqinin səviyyəsini müəyyənləşdirmiş, ilk dəfə olaraq ürək cərrahlarına və pediatrlara gündəlik işlərində istifadə etmələri üçün öz təsnifatını, konsepsiyasını tərtib etmişdir. Bütün bunlara əsaslanaraq yenilikçi alim ürək üzərində cərrahi əməliyyatın aparılmasına göstəriş və əks göstərişi təyin etmiş, cərrahiyyədə isə hansı əməliyyat üsulunun uşaq orqanizmi və ürək üçün zərərsiz aparılmasını və əlverişli olduğunu sübut etmişdir.

Ədilə Namazova dünyada ilk və yeganə pediatr idi ki, uşaqlarda anadangəlmə ürək qüsurları zamanı belə sanballı, çoxtərəfli, dərin elmi tədqiqatlar aparıb konservativ və cərrahi müalicə üsullarını işləmiş, fəsadların qarşısını almaq tədbirlərini təklif etmiş, ürək üzərində aparılası cərrahi əməliyyatın proqnozunu vermiş, cərrahi əməliyyatdan sonrakı yaxın və uzaq dövrlərdə (1 ilə qədər, 5 ildən sonra) olan müsbət və mənfi dəyişiklikləri ətraflı, bütün dəqiqliyi ilə öyrənmişdir.

Belə elmi tədqiqatlardan alınan məlumatların əsasında ürək üzərində uğurlu cərrahi əməliyyatların aparılmasına görə 1965-ci ildə Ədilə Namazova Seçenov adına I Moskva Tibb İnstitutunda doktorluq elmi dərəcəsi almaq üçün dissertasiyanı da böyük uğurla müdafiə etmişdir. Bununla o, pediatriya üzrə tibb elmləri doktoru adı alan ilk azərbaycanlı qadın olmuşdur.

Beləliklə, Ədilə Namazova dünyanın məşhur, aparıcı alimlərinin məktəbini keçərək həkim- klinisist, pediatr- alim kimi püxtələşərək Bakıya qayıtmış, Azərbaycan Tibb İnstitutunda kafedra müdiri seçilmiş, 1966-cı ildə ona professor elmi adı verilmişdir.

Ə.Namazova onu həmişə narahat edən respublikada pediatriya elmi məktəbinin olmaması problemini həll etmək üçün də əməli işlərə başlamışdır. Azərbaycan elmini zənginləşdirmək, müasirləşdirmək məqsədilə alim respublikada ilk dəfə Bakı şəhəri E.Əfəndiyev adına 2 saylı şəhər xəstəxanasında incə, dəqiq xüsusi biokimyəvi laboratoriya və ürək, tənəffüs sisteminin funksional fəaliyyətini müəyyənləşdirən elektrofizioloji elmi mərkəz təşkil etmişdir. Bu mərkəzdə müasir səviyyədə təbabət üçün çox aktual olan müxtəlif hormonlar, bioloji aminlər, lipidlər, zülalla birləşmiş yod, kallikrein kinin sistemi, enzimlər və s. müayinə olunmağa başlanmış, ilk dəfə olaraq sağlam və xəstə uşaq orqanizminin bioloji ritmi öyrənilmişdir.

Bu müayinələr vasitəsilə müxtəlif uşaq xəstəliklərinin inkişaf mexanizmi, xəstəlik zamanı baş vermiş incə dəyişikliklər araşdırılıb aydınlaşdırılmışdır. Həmin araşdırmaları aparmaq üçün Ədilə xanım istedadlı gənc həkimləri, yuxarı kurs tələbələrini elmi işə cəlb etmişdir. Alimin yetirmələri onun rəhbərliyi altında böyük həvəslə çalışmış, bir-birinin ardınca namizədlik, doktorluq dissertasiyaları müdafiə etmişlər. Beləliklə, Azərbaycanda ilk dəfə olaraq Ədilə Namazova pediatriya elmi məktəbini yaratmışdır.

Təbabətdə aktual elmi problemləri araşdırdığına, yeni elmi nailiyyətlər əldə etdiyinə, yüksəkixtisaslı alimlər hazırladığına görə Ədilə Namazova 1971-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının müxbir üzvü seçilmişdir. Bu, Azərbaycan elminin növbəti ciddi uğuru olmuşdur. O, ilk azərbaycanlı qadın olaraq, belə yüksək elmi ada layiq görülmüşdü. SSRİ-nin süqutundan sonra da soydaşımızın elmi nailiyyətləri yüksək qiymətləndirilmiş, o, Rusiya Tibb Elmləri Akademiyasına da üzv seçilmişdir.

Görkəmli pediatr 1972-ci ildə azərbaycan dilində ilk "Uşaq xəstəlikləri" dərsliyini yazıb nəşr etdirmişdir. O, 1972-ci ildə Azərbaycan Pediatrlar qurultayında Azərbaycan Pediatrlar Cəmiyyətinin sədri, 1973-cü ildə isə SSRİ Uşaq Həkimləri Cəmiyyəti İdarə Heyətinin üzvü seçilmişdir.

Azərbaycan pediatriya elminin inkişafına ciddi töhfələr vermiş Ədilə Namazova 1982-ci ildə Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür. Respublikada pediatriya sahəsində elmi kadrların hazırlanmasında alimin xüsusi rolu olmuşdur. Alimin rəhbərliyi ilə 62 namizədlik və doktorluq dissertasiyaları müdafiə olunmuşdur. Hazırda onun yetişdirdiyi tibb elmləri doktorları, professorlar Namazovanın davamçısı kimi özləri də ardıcıllarını hazırlayırlar. Ədilə xanım dünyanın müxtəlif ölkələrində çap olunmuş 350-dən çox məqalənin, 30-dan çox monoqrafiya, dərslik, dərs vəsaitinin müəllifidir. O, MDB ölkələrində "Tibbi etika" adlı ilk dərsliyin də müəllifidir. Soydaşımızın tərtib edib çap etdirdiyi "Tibbi etik qanunları" vəsaiti rus və ingilis dillərinə də tərcümə olunmuşdur. Bunları nəzərə alaraq o, UNESCO-nun bioetika, elm və texnologiyaların etikası üzrə Azərbaycan milli, MDB ölkələri komitələrinin üzvü seçilmişdir.

Tibb elmini inkişaf etdirməkdə və yüksək ixtisaslı kadrlar hazırlanmasında xidmətləri yüksək qiymətləndirilərək 1981-ci ildə Ədilə Namazovaya Azərbaycanın "Əməkdar elm xadimi" fəxri adı verilmişdir. 1983-cü ildə alim Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. O, Azərbaycanda, keçmiş Sovetlər İttifaqında və bütün Şərqdə həməlik ilk və yeganə azərbaycanlı qadındır ki, iki dövlətin akademiyasının həqiqi üzvüdür.

Alim 20 il Azərbaycan Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurasının sədri olmuşdur. Uzun illər o, respublika qadınlar cəmiyyətinin və Sovet Qadınları Komitəsinin Rəyasət Heyətinin üzvü olmuşdur. Azərbaycan qadınlarını təmsil edərək onaların problemləri haqqında Moskvada, Litvada, Sankt-Peterburqda, Hindistanda, Türkiyədə keçirilən konfranslarda çıxışlar etmişdir.

1989-cu ildə Ədilə Namazova SSRİ xalq deputatı, SSRİ Ali Sovetinin, Millətlər Şurasının üzvi seçilmişdir. O, SSRİ Ali Sovetində Azərbaycan, Qazaxıstan, Orta Asiya Respublikaları qadınları komitəsinə rəhbərlik etmişdir. Ədilə xanımın Ermənistanın Azərbaycana qarşı təcavüzünün ilk günlərindən mübarizəyə fəal qoşulmasını, çıxışlarında onları ifşa etməsini xüsusi qeyd etmək lazımdır.

1994-cü ildən indiyə qədər Azərbaycan Respublikası Ağsaqqallar Şurasının İdarə Heyətinin üzvüdür. 2002-ci ildə Ə.Namazovanın uşaqlara olan böyük məhəbbətini, onlara olan daimi qayğısını, təşkilatçılıq fəaliyyətini nəzərə alaraq Azərbaycan Respublikası Uşaq Fondunun həmsədri seçilmişdir.

Elmi ictimai fəaliyyətlərinə, Azərbaycan səhiyyəsində olan boyük xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə 1996-cı ildə Ə.Namazova ölkənin yüksək "Şöhrət" ordeni ilə təltif edilmişdir. 2011-ci ildə isə Prezident İlham Əliyevin sərəncamı ilə alim "Şərəf" ordeninə layiq görülmüşdür.

Ə.Namazova çox mənalı, maraqlı, fədakar həyat yaşamışdır. O, həyatda az təsadüf edilən elə insanlar sırasına daxildir ki, onlar məqsədyönlü olaraq öz istedad, bilik və bacarığını xalqın, cəmiyyətin xeyrinə sərf edirlər. Bu gün akademik Ədilə Əvəz qızı Namazova ömrünün müdrik, yaradıcılığının səmərəli dövrünü yaşayır. Arzumuz budur yüz yaşını da belə fəal, ona xas olan yüksək mənəviyyat, insanpərvərliklə başa vursun.

*Habil QURBANOV,*
*hüquq elmləri doktoru,*
*professor*